# Səhnəmizin Dezdemonası

Cülyetta, Kordeliya, Viola, Mirondalina, Dezdemona, Şirin,
Yetər, Gültəkin, Xuraman...
Bu obrazların adını çəkərkən qeyri-ixtiyari korifey sənətka-
rımız Barat Şəkinskayanı xatırlayırıq. Təbii ki, bu da səbəbsiz
deyil. Çünki ölməz aktrisamız o personajlara elə sənət möhürü
vurub, onları tamaşıçılara elə əlvan boyalarla çatdırıb ki, başqa
aktyoru düşünmək belə istəmirsən. Barat xanımın teatra olan
təmənnasız sevgisi milli səhnəmizi onlarla cazibədar səhnə surə-
ti ilə zənginləşdirsə də, onu kino sənətini də eyni şövq və ehtiras-
la sevməyə, kino sənətinin də fədakarı olmağa qoymayıb. Nə
yaxşı ki, Hüseyn Seyidzadə, Tofiq Tağızadə, Rasim Ocaqov ki-
mi uzaqgörən rejissorların səyi nəticəsində Barat xanım səhnə-
nin cazibəsindən qoparaq "Görüş", "O olmasın, bu olsun",
"Onun bəlalı sevgisi" və digər filmlərdə yaddaqalan obrazlar ya-
rada bilib. Bu, onun cazibədar Cülyettası, məsum Dezdemonası,
füsunkar Fiolası, fədakar Şirini, qətiyyətli Dilşadı haqqında
ağızdan-ağıza eşidilənlərin Barat xanımla bağlı canlı təsəvvürü
də məhz bu filmlərdə yaratdığı obrazlar əsasında formalaşıb.

Barat xanım müsahibələrində dönə-dönə qeyd edib ki, kinonu özümə teatr qədər doğma hesab etmirəm. Çünki filmi hissə-hissə çəkirlər. "Aktyor yaratdığı obrazın psixoloji inkişafını, tərəddüd və həyəcanlarını, iztirab və sevincini ardıcıl surətdə yaşaya bilmir. Məsələn, Hüseyn Seyidzadə "O olmasın, bu olsun" filminin əvvəlcə son kadrını çəkdi, sonra isə əvvəlki hissələrini. Mən final kadrlarda Sənəmi tragik, az qala bütün film boyu komik planda oynayırdım. Əgər final kadrı əvvəldən oynasaydım, Sənəmi daha komik, daha mübariz oynaya bilərdim. Amma hər dəfə Sənəmin finalda başını aşağı salıb Məşədi İbada ərə getmək təklifinə razılığını bildirməsi gözlərim önünə gəlir və məni mütiləşdirirdi.

Kinokameranın nəsə gizli bir sirri var. Mən onun sirrini öyrənə bilmədim ki, bilmədim. Mənimlə birlikdə teatrda çalışan Ələsgər Ələkbərov, Leyla Bədirbəyli kimi aktyorlar kinonun dilini öyrənə bildilər, yaxşı da filmlərə çəkildilər. Di gəl ki, bu məndə alınmadı. Filmə çəkilməyim ya təsadüfən olub, ya da rejissorlar məcbur ediblər. "Görüş"dəki Şövkət obrazı kinoda ilk işimdir. Rəhmətlik Tofiq Tağızadə dedi ki, bu rola hökmən sən çəkilməlisən. Sarışın olduğumdan mənə həmişə elə gəlirdi ki, rusa oxşayıram. Odur ki, əvvəlcə filmə çəkilmək təklifinə razı olmadım. Nəhayət, məni birtəhər yola gətirə bildilər. Filmə tamaşa edəndən sonra çəkildiyimə peşman oldum. "O olmasın, bu olsun" filmində oynadığım Sənəm obrazından da narazıyam. Ona baxanda ətim tökülür. Rejissor Hüseyn Seyidzadə məni çəkilişlərə zorla razı sala bildi. O istəyirdi ki, bu filmdə Azərbaycanın o vaxtkı aktyorlarının qalereyasını yaratsın. Kimlər yoxdur o filmdə? Adil İsgəndərov, Möhsün Sənani, Ağasadıq Gəraybəyli, Mustafa Mərdanov, Əliağa Ağayev, Lütfəli Abdullayev...

Bəzi aktyorları filmə daxil etmək üçün Hüseyn Seyidzadə ssenariyə əlavələr də etdi. Mirzə Cəlil roluna Rza Əfqanlını, Sabir roluna isə Sadıq Salehin çəkilməsi məhz bu cür oldu. Kino çəkilişləri ilə bağlı kadr arxasında qalan maraqlı faktları da xatırlayıram. "Görüş" filminin çəkilişləri gedəndə rəhmətlik Münəvvər xanım rejissora deyirdi ki, Barata çox da etibar etməyin, bir də görəcəksiniz ki, hər şeyi atıb çıxıb getdi. Hamısı xasiyyətimi bilirdilər. "Görüş filmində nə qədər elədilərsə, çiskin yağış yağan bir neçə gün ərzində məni çəkilməyə məcbur edə bilmədilər. Gözlədilər, havalar açıldı. Sonra çəkilməyə razılıq verdim. Filmin son kadrlarını Moskvada çəkdik. Artıq bir neçə ay idi ki, çəkilişlə bağlı Moskvada idik. Teatr mövsümünün açılışı ilə əlaqədar olaraq Adil İsgəndərov teleqram vurub məni Bakıya çağırdı. Çəkiliş başa çatmamış məni buraxmazdılar. Heç kimə heç nə demədən gizlicə Bakıya qayıtdım. Fikir versəniz görərsiniz ki, azərbaycanlı zəhmətkeşlərin Moskvada kənd təsərrüfatı sərgisinə tamaşa etdiyi kadrda mən yoxam. Çünki həmin yer

çəkiləndə mən çoxdan Bakıda idim. "Bəxtiyar" filmində komissiya üzvlərindən biri olan qadın rolunu əvvəlcə mən oynayırdım, sonra tərsliyim tutdu, çəkilişlərə getməkdən imtina etdim, Sofanı çəkdilər bu rola. İndi diqqətlə baxsanız görərsiniz ki, arxa tərəfdən baxanda həmin qadın bir cür, qarşıdan isə başqa cür görünür. Çünki kadrın birində mən, o birində isə Sofa çəkilib. Bizim saçlarımız bir-birinə oxşamırdı, nə qədər cəhd eləsələr də bu fərqi aradan qaldıra bilmədilər. İlk dəfə məni "Arşın mal alan" filmində Asya roluna dəvət ediblər. O vaxtlar filmi rusca çəkib, sonra Azərbaycan dilinə tərcümə edirdilər. Mən rusca mükəmməl bilmirdim, gördüm ki, bəzi sözləri lazım olan kimi tələffüz edə bilmirəm. Çəkilişə getməkdən imtina etdim. Sən demə bunun heç bir əhəmiyyəti yox imiş. Çünki filmi sonra onsuz da səsləndirəcəkdilər. Mənim rolumu başqası da səsləndirə bilərmiş. O vaxt kino sahəsində təcrübəm olmadığından mən bunu bilmirdim".

*Təbii ki, böyük sənətkar söhbətində təvazökarlıq edirdi. Onun oynadığı rolları bir-bir yada saldıqja bir daha buna əmin olursan. Hamısı da rəngarəng, bir-birindən maraqlı. Barat xanımın dahiliyi də elə bunda idi. İndi özünü öyənlərin, televiziya ekranlarından düşmək bilməyənlərin heç biri onun etdiyinin bir faizini də etməyib...*

**Ağalar Bayramov,**
**respublikanın əməkdar artisti**